

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 181 (23.092)

25 sentyabr 2018-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 24-də ölkəmizə işgüzar səfərə gələn Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa ilə görüşü olub.

Dövlətimizin başçısı Monqolustan Prezidentini qarşılayıb.

Sonra birgə foto çəkdirilib.

Daha sonra dövlət başçılarının görüşü olub.

Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa deyib ki, bizim bir çox vətəndaşlarımız, xüsusilə idmançılarımız, güləşçilərimiz Bakıdakı çempionatda iştirak edirlər. Onların hamısı böyük məmnuniyyətlə qeyd edirlər ki, ölkəniz möhtəşəm inkişaf edir.

Azərbaycan Prezidenti İlham Əliyev deyib: Bu görüş bizim ikitərəfli gündəliyimizi, əməkdaşlığımızı gücləndirmək, o cümlədən idman sahəsində qarşılıqlı fəaliyyəti inkişaf etdirməklə bağlı bir çox məsələlərə dair fikir mübadiləsi aparmaq üçün yaxşı fürsətdir.

Görüşdə iqtisadi, kənd təsərrüfatı, ticarət, investisiya, turizm, informasiya-kommunikasiya texnologiyaları, tranzit daşımalar, humanitar, təhsil, xalçaçılıq və Monqolustan tərəfinin Azərbaycan peykinin imkanlarından istifadəsi və "ASAN xidmət" təcrübəsinin bölüşülməsi ilə bağlı məsələlər müzakirə olunub.

Söhbət zamanı, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.



## "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında arxeologiya sahəsində səmərəli fəaliyyətinə görə Katherine Anne Marro **"Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə"** nişanı ilə təltif edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 sentyabr 2018-ci il*




## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Sentyabrın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərində keçirilən "Avropa günləri"ndə iştirak etmək üçün muxtar respublikaya gələn Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas və Avropa İttifaqına üzv ölkələrin Azərbaycandakı səfirləri ilə görüşüb.

Ali Məclisin Sədri qonaqları Naxçıvanda görməkdən məmnunluğunu bildirmiş, Naxçıvan şəhərində "Avropa günləri"nin keçirilməsini muxtar respublikaya olan etimadın və tədbirlərin yüksək səviyyədə keçirilməsinə inamın ifadəsi kimi dəyərləndirmişdir. Muxtar respublikanın ərazisi, əhalisi, idarəetmə quruluşu və sosial-iqtisadi inkişafı haqqında qonaqlara ətraflı məlumat verən Ali Məclisin Sədri təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirləri diqqətə çatdırmışdır. Ali Məclisin Sədri blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikada inkişafın təmin olunduğunu bildirmiş, Naxçıvan şəhərində "Avropa günləri"nin keçirilməsinə görə təşkilatçılara təşəkkürünü bildirmiş, əməkdaşlığın davam etdiriləcəyinə inamını ifadə etmişdir.

Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas Naxçıvan şəhərində "Avropa günləri"nin keçirilməsi üçün yaradılan şəraitə və səmimi qəbula görə minnətdarlıq etmişdir. Avropa İttifaqı ilə Azərbaycan arasındakı münasibətlərdən danışan qonaq Naxçıvan Muxtar Respublikasının inkişafının, xüsusilə təhsil sahəsində qazanılan nailiyyətlərin böyük məmnunluq doğurduğunu və əməkdaşlıq üçün geniş imkanlar açdığını bildirmişdir.

Finlandiyanın səfiri xanım Arya Makkonen, Danimarkanın səfiri Svend Olinq, Yunanıstanın səfiri Nikolas Kanellos, Macarıstanın səfiri Viktor Szederkenyi, Bolqarıstanın səfiri Nikolay Yankov və Belçika Krallığının səfiri Bert Skufs Naxçıvanda olmaqdan məmnunluqlarını bildirmiş və əməkdaşlıq imkanlarını diqqətə çatdırmışlar.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda "Avropa şəhərciyi"nin açılışı olmuşdur





Sentyabrın 23-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Avropa şəhərciyi"nin açılış tədbiri keçirilmişdir.

Əvvəlcə Azərbaycan Respublikasının və Avropa İttifaqının himnləri səsləndirilmişdir.

Avropa ölkələrinin Azərbaycandakı səfirləri festival iştirakçılarını salamlamışlar.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov və Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas çıxış edərək tədbiri açıq elan etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmiş, nümayiş olunan sərgilərə baxmışdır.

Məlumat verilmişdir ki, burada Naxçıvan Muxtar Respublikasının, Avropa İttifaqının, o cümlədən Almaniyanın, Macarıstanın, Fransanın, İsveçin, Bolqarıstanın və Böyük Britaniyanın ölkəmizdəki səfirliklərinin stendləri qurulmuşdur. Həmin stendlərdə ölkələrin mədəniyyətini, adət-ənənələrini və turizm potensialını əks etdirən sərgilər nümayiş olunurdu. Avropa İttifaqı tərəfindən ölkəmizdə kənd təsərrüfatının inkişafı, yerli və regional idarəetmənin təşkili, ailələrdə və kiçik sahibkarlıq subyektlərində maliyyə savadlılığının artırılması sahəsində həyata keçirilən layihələr, eləcə də Avropa İttifaqı ilə Azərbaycan arasındakı mövcud əməkdaşlıq və

*Ardı 2-ci səhifədə*






tərəfdaşlıq əlaqələri haqqında tədbir iştirakçılarına məlumat verilmişdir.

Naxçıvan stendində milli geyimlərimiz və mətbəx nümunələrimiz, şirniyyatlar, içkilər nümayiş olunmuş, xalça toxunuşu təqdim edilmişdir. Naxçıvan Dövlət Filarmoniyasının və Naxçıvan Uşaq Filarmoniyasının solistlərinin ifasında xalq mahnıları və muğamlar səslənmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskasa Naxçıvan xalçası hədiyyə etmişdir.

Naxçıvan şəhər sakinləri Qönçə Yusifova, Süsənbər Ağamalıyeva, Rəna Hüseynova və Samirə Abdullayeva "Avropa şəhərciyi"nin açılışını inkişafın, sabitliyin, milli dəyərlərimizə, adət-ənənələrimizə və mədəniyyətimizə göstərilən qayğının nəticəsi kimi dəyərləndirmiş, bütün bunlara görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişlər.

Tədbirin gedişində hər bir ölkə haqqında viktorinalar təşkil edilmiş, bilik səhnələri və bir sıra digər tədbirlər nümayiş olunmuşdur.

Axşam saatlarına qədər davam edən tədbir konsert proqramı ilə başa çatmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



# Naxçıvanda "Avropa günləri" çərçivəsində silsilə tədbirlər keçirilib

*Naxçıvanda "Avropa günləri" ilə əlaqədar muxtar respublikamıza gələn qonaqların bir qrupunun iştirakı ilə Naxçıvan Dövlət Universitetində görüş keçirilib.*

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov "Avropa günləri"nin qədim və müasir Naxçıvanın dünyada təbliği, muxtar respublikanın Avropaya inteqrasiyası baxımından əhəmiyyətindən bəhs edib. Qeyd olunub ki, Naxçıvan Dövlət Universiteti xarici ölkələrin ali təhsil müəssisələri ilə çoxşaxəli əməkdaşlığa malikdir, müəllim və tələbə mobilliyi bu ali təhsil ocağında uğurla həyata keçirilir.



Erasmus+ Milli ofisinin rəhbəri Pərviz Bağırov bildirib ki, müasir dövrdə Avropa ölkələri təhsil sistemlərinin inteqrasiyası və bu təhsil sisteminin formalaşdırılması xüsusi aktuallıq kəsb edir. Bu istiqamətdə həyata keçirilən tədbirlər sırasında Avropa təhsil sistemini özündə əks etdirən Erasmus+ proqramlarının mühüm əhəmiyyəti var.

Sonra tələbə və müəllimlərin sualları cavablandırılıb. Avropa İttifaqının Azərbaycandakı səfirləri tələbələrə oxuduqları xarici ölkə universitetləri, gənc səfir olmaq üçün müəyyənləşdirilmiş yaş həddi haqqında məlumat veriblər.

Universitetin İncəsənət fakültəsində keçirilən növbəti görüşdə Avropa İttifaqının Azərbaycan Respublikasındakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas Avropa İttifaqı haqda məlumat verib.

Sonra Bolqarıstan, Litva, Finlandiya, Xorvatiya, Yunanıstan, Çexiya və İtaliyanın diplomatik nümayəndələri öz ölkələri haqda maraqlı məlumatları tədbir iştirakçılarının diqqətinə çatdırıblar. Sonra tələbələrə "Oskar" mükafatına layiq görülən qısametrajlı "Mindenki" filmi təqdim edilib.

* * *




*Sentyabrın 22-də Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsində Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskasın, Azərbaycanda akkreditə olunmuş Avropa İttifaqı ölkələrinin diplomatik missiyalarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə "Avropa günləri"nə həsr olunmuş mətbuat konfransı keçirilib.*

Azərbaycan Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi Vüsal Ələkbərli mətbuat konfransında çıxış edərək Azərbaycanın multikultural dəyərlərə malik, mədəniyyətlərarası və dinlərarası dialoqa xüsusi əhəmiyyət verən demokratik respublika olduğunu vurğulayıb. Bildirib ki, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası bu dəyərləri özündə təcəssüm etdirməklə yanaşı, həm də bəşəriyyətin ikinci atası hesab olunan Nuh Peyğəmbərin Vətənidir.

Vurğulanıb ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü siyasəti və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun uğurlu rəhbərliyi nəticəsində muxtar respublika sürətlə inkişaf edir və müxtəlif beynəlxalq tədbirlərə ev sahibliyi edən məkan kimi tanınır.

Diqqətə çatdırılıb ki, sentyabrın 21-dən etibarən Naxçıvan şəhərində "Avropa günləri" keçirilir. Tədbirlər Naxçıvanın mədəni həyatında xoş xatirə kimi qalacaq, yerli sakinlər Avropa İttifaqını təşkil edən ayrı-ayrı dövlətlərin mədəniyyəti və tarixi haqqında yeni məlumatlar əldə edəcəklər.

Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas deyib ki, ilk dəfədir, Avropa İttifaqı Naxçıvanda belə bir geniş miqyasda tədbir keçirir. Üç gün davam edən tədbirdə Avropa İttifaqı tərəfindən 60 nəfər iştirak edir. Onlar içərisində ittifaqa üzv ölkələrin 17 səfirliyinin nümayəndələri də var.

Kestutis Yankauskas bildirib ki, bu gün Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq, həmçinin qarşılıqlı etimad və münasibətlər inkişaf edir. Avropa İttifaqı Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır, eyni zamanda ittifaqa üzv olan ölkələrin şirkətləri Azərbaycanın həm neft, həm də qeyri-neft sektoruna böyük həcmdə sərmaya yatırıblar.

"Biz iki gün ərzində Naxçıvan şəhərinin bir sıra ümumtəhsil məktəblərində, universitetlərində olacağıq, gənclərlə görüşlər keçirəcəyik. Bu görüşlərimiz tam yerinə düşür. Çünki Naxçıvan digər statuslarla yanaşı, bu il həm də Azərbaycanın Gənclər Paytaxtı seçilib", – deyən Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov təhsilin prioritet məsələlərdən olduğunu vurğulayıb. Gənc nəslin inkişafı naminə onların təhsilinə yönəldilən vəsait və həyata keçirilən layihələr böyük əhəmiyyət kəsb edir. Bu gün Avropa İttifaqı Azərbaycan ali təhsil müəssisələri arasında Erasmus+ proqramını, tələbə və müəllim həyatı üçün mübadilə proqramlarını həyata keçirir. Bununla bərabər, insanlar arasında münasibətlərin qurulması, ünsiyyətin daha da dərinləşməsi Avropa İttifaqı – Azərbaycan tərəfdaşlığını və münasibətlərini daha da inkişaf etdirəcək.

Mətbuat konfransında sualları cavablandıran avropalı diplomatlar bildiriblər ki, Naxçıvanda onları daha çox cəlb edən səliqə və insanların münasibəti olub. Burada yaddaqalan məqamların nə olduğunu Yunanıstan səfiri Nikolas Kanellosun elə Azərbaycan dilində dediyi "Sevgi, Günəş və sülh" kəlməsinə Kestutis Yankauskas isə bir söz də əlavə edib: "Təmizlik!"

Səfirlər muxtar respublikanın müasir görkəmini və inkişafını yüksək dəyərləndirib, iqtisadiyyat, o cümlədən kənd təsərrüfatı, meliorasiya, turizm və bir çox istiqamətlərdə muxtar respublika ilə əməkdaşlığa hazır olduqlarını vurğulayıblar.



*Avropa İttifaqı ölkələrinin səfirləri ilə "Naxçıvan" Universitetində təşkil olunan görüşdə universitetin rektoru, professor İsmayıl Əliyev ali təhsil müəssisəsinin keçdiyi inkişaf tarixindən ətraflı bəhs edib.*

Bildirilib ki, universitet dünyanın 50-dən çox ali təhsil müəssisəsi ilə əməkdaşlıq edir, Avropa İttifaqının maliyyələşdirdiyi bir sıra beynəlxalq layihələrdə partnyor universitet kimi iştirak edir. Erasmus+ xətti ilə AESOP və EQAC, Tempus xətti ilə ENOTE və COMOLTE layihələri icra edilib. Ali təhsil ocağı Rumıniyanın Pteşti Universiteti ilə Erasmus+ çərçivəsində tələbə-müəllim mobilliyi istiqamətində əməkdaşlıq edir. Aparılan əməkdaşlıq burada təhsilin səviyyəsini yüksəltməyə təsir edir.

Sonra Rumıniya, İsveç, Avstriya, Danimarka, Hollandiya, Almaniya və Böyük Britaniya krallığının səfirləri təmsil etdikləri ölkələrin təhsil sistemi, coğrafiyası, mədəniyyəti barədə məlumat verib, tələbələri maraqlandıran sualları ətraflı cavablandırıblar.

Sonda qonaqlar universitetin keçdiyi inkişaf yolunu əks etdirən videoçarxa baxıblar.

"Avropa günləri"nin keçirilməsi ilə bağlı Naxçıvana gələn nümayəndə heyətinin bir qrup üzvü sentyabrın 23-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində yaradılan şəraitlə tanış olub. Qonaqlara mərkəz haqqında ətraflı məlumat verilib.

Diplomatlar burada keçirilən dərs prosesini izləyib, uşaqlara hədiyyələr təqdim ediblər.

*Ardı 3-cü səhifədə*



*Azərbaycanda akkreditə olunmuş Avropa İttifaqı ölkələrinin diplomatik missiyalarının rəhbərləri və nümayəndələri Naxçıvanda keçirilən “Avropa günləri” çərçivəsində sentyabrın 23-də Naxçıvan Biznes Mərkəzində olublar.*

Biznes Mərkəzi ilə tanışlıq zamanı məlumat verilib ki, mərkəzdə 94 müəssisə tərəfindən 192 növdə 1000-dən çox çeşiddə məhsul sərgilənir. Həmçinin burada yerli ailə təsərrüfatlarında istehsal olunan məhsullar, ayrı-ayrı sənətkarlar tərəfindən hazırlanan əl işləri, rəsm əsərləri, xalçalar və Naxçıvan Muxtar Respublikasının istehsal və xidmət müəssisələrinin xəritəsi nümayiş etdirilir. Muxtar respublikadakı iri özəl sektor, orta və kiçik biznes qurumlarının məhsulları da burada öz yerini tutub. Mərkəzdə “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018” loqosunun əks olunduğu yerli məhsullar və əl işləri də nümayiş etdirilir.

Sonra qonaqlarla Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin nümayəndələrinin və naxçıvanlı sahibkarların görüşü olub. İqtisadiyyat naziri Famil Seyidov bildirib ki, muxtar respublika ötən illər ərzində böyük inkişaf yolu keçib. Bu gün muxtar respublikada 987 kiçik və iri istehsal sahəsi fəaliyyət göstərir, 382 növdə məhsul istehsal olunur.

Azərbaycan Respublikasının 10 iqtisadi regionu içərisində Naxçıvan Muxtar Respublikası ölkə Prezidentinin sədri olduğu “Caspian European Club”un 2017-ci il üçün investisiya reytinqinin lideri olub.

Naxçıvan Muxtar Respublikasının iş adamları Avropa İttifaqına üzv ölkələrin biznes nümayəndələrinin də qatıldıqları 76 müxtəlif işgüzar tədbirdə iştirak ediblər. Son illərdə Naxçıvanda istifadəyə verilən istehsal müəssisələrinin əksəriyyətində Almaniya, Fransa, Avstriya, Belçika, İtaliya, Polşa, İspaniya, Macarıstan kimi Avropa İttifaqının üzvü olan ölkələrin yeni texnoloji avadanlıqları tətbiq olunur.

Kənd təsərrüfatı naziri Bəhruz Bayramov bildirib ki, Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirilir. Aqrar sahəyə verilən güzəştli kreditlər, taxıl və soyuducu anbarların, istixana komplekslərinin, quşçuluq və balıqçılıq təsərrüfatlarının yaradılması muxtar respublikada kənd təsərrüfatının inkişafını təmin edib. Bu sahədə əldə olunmuş nailiyyətlərin göstəricisidir ki, ötən il muxtar respublikadan tələbatdan artıq – 101 milyon 478 min ABŞ dollarından çox kənd təsərrüfatı məhsulları ixrac olunub.

Sonra Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas çıxış edərək deyib ki, bu qurumla Azərbaycan arasında 1996-2003-cu illərdə qarşılıqlı əlaqələrin inkişafı barədə müqavilələr bağlanıb. Hazırda Avropa İttifaqı Azərbaycanın ən böyük (2017-ci ildə 35 faiz olmaqla) ticarət tərəfdaşıdır. Avropa İttifaqı Azərbaycanın neft və qeyri-neft sektorunda da ən böyük investordur. Azərbaycanda Avropa İttifaqı ölkələrinin 385 şirkəti fəaliyyət göstərir.

Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin əməliyyatlar üzrə koordinatoru Ülviyyə Abdullayeva son illər Azərbaycanda həyata keçirilən layihələr barədə danışıb. Avropa İttifaqı dəstəkli “Twinning” layihəsi üzrə 2007-ci ildən bu günə kimi 50-yə qədər layihənin reallaşdırıldığı, 2008-ci ildən TAIEX layihəsi üzrə 162 tədbirin keçirildiyi diqqətə çatdırılıb.

Sonra Latviya, Xorvatiya və Bolqarıstanın səfirləri çıxış edərək Naxçıvan Muxtar Respublikası ilə ölkələri arasındakı iqtisadi əlaqələrin perspektivlərindən danışıblar.

Sonda tədbir iştirakçıları Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafından bəhs edən sənədli filmə baxıblar.

## Avropalı qonaqlar Naxçıvandan zəngin təəssüratlarla ayrılıblar

***Xəbər verdiyimiz kimi, sentyabrın 21-23-də Naxçıvan şəhərində keçirilmiş “Avropa günləri”ndə iştirak etmək üçün Avropa ölkələrinin Azərbaycandakı səfirləri və digər qonaqlar muxtar respublikamızda olublar. Səfər çərçivəsində avropalı qonaqlar Naxçıvan şəhərinin tarixi abidələrini və mədəniyyət müəssisələrini ziyarət edib, muxtar respublikanın iqtisadiyyat, təhsil, turizm, mədəniyyət sahələri ilə yaxından tanış olublar. Diplomatlar Naxçıvanla bağlı təəssüratlarını “Şərq qapısı” qəzetinin əməkdaşları ilə bölüşüblər.***

*Kestutis Yankauskas – Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri:*



– Bu, mənim Naxçıvana artıq üçüncü səfərimdir. Diyarınız çox gözəldir. Xüsusən buradakı təmizlik və qonaqpərvərlik insanı özünə çəkir. Əvvəlki səfərlərimdə az da olsa, Naxçıvanı gəzmək imkanım olub və deyə bilərəm ki, bir litvalı kimi buradakı uca dağlar və mineral sular mənim üçün çox cazibədardır. Hesab edirəm ki, ölkənizə və o cümlədən Naxçıvan Muxtar Respublikasına gətirilən turistlərin sayını artırmaq imkanları genişdir. Ona görə də qarşıdakı dövrdə Azərbaycan Respublikasına, o cümlədən Naxçıvan Muxtar Respublikasına səyahət edən avropalı turistlərin sayını artırmaq üçün səylər göstərilməli, turagentlər bu istiqamətdə işləməli, bir-birimizi daha yaxından tanımalıyıq. Düşünürəm ki, sıx turizm əlaqələri hər iki tərəfi bir-birinə daha da yaxınlaşdıracaq.

Biz burada keçirdiyimiz görüşlərdən çox məmnun qaldıq. İstər təhsil ocaqlarında, istərsə də iş adamları ilə görüşlərdə insanların gördüyü işə yaradıcı münasibətin şahidi olduq. Keçirdiyimiz mətbuat konfransında çox maraqlı suallar verildi. Heydər Əliyev adına məktəbdə, Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərində keçirilən görüşlərdə şagird və tələbələrin fəallığının şahidi olduq. Bu təkcə mənim üçün deyil, bütün avropalı səfirlər üçün çox xoşdur. Avropada təhsil almaq istəyən, Avropa İttifaqı dəstəkli təhsil və kiçik biznes layihələrinə maraqgöstərən insanlarla tanış olmaq üçün Naxçıvanda keçirilən bu tədbir həm burada yaşayan insanlar, həm də elə bizim üçün əla fürsət oldu. Naxçıvanqalada təşkil olunmuş “Avropa şəhərciyi”nə minlərlə insanın göstərdiyi maraq isə həqiqətən, bizi çox sevindirdi. İnsanların yeni dostlar qazanması, digər mədəniyyətlərlə qiyabi də olsa, tanışlığı baxımından burada keçirilən gün unudulmaz oldu. Həqiqətən, bu diyardan dərin təəssüratla qayıdırıq.

*Bert Skufs – Belçika Krallığının səfiri:* – Əvvəlcə onu vurğulamaq istərdim ki, Naxçıvan Muxtar Respublikasının bərpaolunan enerji mənbələrindən istifadə sahəsində əldə etdiyi nailiyyətlərə görə bəzi Avropa ölkələri üçün nümunə ola bilər. Sevindirici haldır ki, bu gün Belçika şirkətləri bu sahəyə öz töhfələrini verirlər. Onlar Naxçıvanda Günəş Elektrik Stansiyasının qurulmasında və fəaliyyətinin təşkilində qarşılıqlı əməkdaşlıq çərçivəsində uğurlu nəticələr əldə ediblər.



Bir çox ölkələr enerji təhlükəsizliyinin təmin edilməsinin vacibliyini bildirirlər, amma təcrübədə böyük nəticələr əldə edə bilmirlər. Naxçıvanda isə alternativ enerji mənbələrindən istifadə istiqamətində konkret nəticələr əldə olunur, həqiqətən, enerji təhlükəsizliyi təmin edilir. Ümid edirik ki, bu sahə Naxçıvanda gələcəkdə daha da inkişaf edəcək.

*Viktor Szederkenyi – Macarıstanın səfiri:*



– Hava limanında ikən ilk hiss etdiyim və gördüyüm bu yerin saf havası və təmizliyi oldu. Şəhər mərkəzinə doğru gəldikdə isə Naxçıvanın hərtərəfli zəngin bir şəhər olduğunu görürsən. İnsanların qonaqpərvərliyi, səmimi rəftarı məndə xoş əhval-ruhiyyə yaratdı. Tarix və mədəniyyət əsrlərlə bir-birinə qovuşmuş dəyər kimi Naxçıvanın simasında öz əksini tapıb. Naxçıvanın böyük turizm potensialının olduğunu gördük. Və bu, Avropa ölkələrindən Naxçıvana gəlmək istəyən turistlər üçün mühüm baza rolunu oynayır. Tədbir çərçivəsində Naxçıvanın iqtisadiyyatı, o cümlədən sənaye və kənd təsərrüfatı sahələri ilə bağlı lazımi məlumatlar əldə etdik. Eyni zamanda təhsil sahəsində əməkdaşlığın perspektivlərini düşünürəm. Ümumiyyətlə, Naxçıvanda keçirilən “Avropa günləri” bizə imkan verdi ki, Azərbaycanın bu qədim bölgəsini daha yaxından tanıyaq. Onu da qeyd edim ki, Naxçıvanla Macarıstan arasında iqtisadiyyatın müxtəlif sahələri, həmçinin təhsil sahəsində əməkdaşlıq üçün böyük potensial var. Ümid edirəm ki, bu əməkdaşlıq əlaqələri daha geniş şəkildə inkişaf etdiriləcək.

*Nikolay Yankov – Bolqarıstanın səfiri:*



– Azərbaycan Respublikası ilə Bolqarıstan arasında mədəni, iqtisadi, hərbi, diplomatik və digər sahələrdə münasibətlər uğurla inkişaf edir. Bu gün Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasına səfərimdən məmnunluq hissi duyuram. İlk dəfədir, burada olmağıma baxmayaraq, sanki dəfələrdir bu doğma diyara gəlib getmişəm. Şəhərinizin təmizliyi, insanların qonaqpərvərliyi, gülərüzlüyü ilk baxışdan diqqətimi cəlb etdi. Burada biz sahibkarlarla yüksək səviyyəli görüşlər keçirdik və Naxçıvanın sürətli sosial-iqtisadi inkişafı haqqında ətraflı məlumat aldıq. Gələcəkdə Naxçıvan Muxtar Respublikası ilə Bolqarıstan arasında bir çox sahələrdə əməkdaşlığımızı daha da genişləndirəcək və gücləndirəcəyik.

*Yohan Şitterer – Fransanın Azərbaycandakı səfirliyinin əməkdaşlıq və mədəniyyət məsələləri üzrə müşaviri:*



– Naxçıvanda keçirilən “Avropa günləri”nin iştirakçısı olmaqdan çox məmnunam. Burada Avropa İttifaqına üzv ölkələrin Azərbaycan Respublikasındakı səfirliklərinin stendləri qurulub. Həmin stendlərdə Fransanın, o cümlədən digər ölkələrin mədəniyyətini, adət-ənənələrini, turizm potensialını, təhsilini əks etdirən sərgilər nümayiş olunur. Bu gün Naxçıvanla Fransa arasında mədəni sahədə əlaqələr mövcuddur. 10 ildən artıqdır ki, fransalı və naxçıvanlı arxeoloqlar qədim diyarda birgə arxeoloji qazıntılar aparırlar və uğurlu nəticələr əldə ediblər.

Qeyd edim ki, bu il oktyabr ayının 25-də Bakı şəhərində Naxçıvanda qazıntılar zamanı aşkar olunan arxeoloji tapıntıların sərgisi təşkil olunacaq. O ki qaldı Naxçıvana, buranın çox gözəl təbiəti, təmiz havası və gözəl insanları vardır. Gələcəkdə Fransa ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin yüksək səviyyədə inkişaf etdirilməsi üçün bu gözəl diyara gəlişimiz daha da intensivləşəcək.

*Arya Makkonen – Finlandiyanın səfiri:*



– İlk olaraq onu deyim ki, yerli insanların “Avropa günləri”nə böyük marağı diqqətimi cəlb etdi. Digər tərəfdən Naxçıvan şəhərində nəzərimi cəlb edən təmizlik, səliqə-sahman oldu. Burada olarkən onu da öyrəndik ki, Naxçıvanda alternativ mənbələr hesabına enerji təminatı çox yüksəkdir. Bu, ciddi göstərici, böyük nailiyyətdir.

Bu gün Finlandiyanın Azərbaycanla və onun Naxçıvan Muxtar Respublikası ilə münasibətlərində təhsil mühüm yer tuta, bu sahə daha da inkişaf etdirilə bilər. Tarixdən də bilirik ki, 100 il bundan əvvəl bizim ölkəmiz çox kasıb idi. Ancaq yaxşı təhsilimizin sayəsində bu gün iqtisadi cəhətdən kifayət qədər güclü bir ölkəyə çevrilmişik. Bu, bir daha onu göstərir ki, təhsil hər bir ölkənin gələcək inkişafında əvəzolunmaz rol oynayır. Onu da qeyd edim ki, yaxşı təhsilin nəticəsi olaraq yetişən yüksəkixtisaslı kadrların hesabına bu gün Finlandiya alternativ enerji mənbələrindən istifadəyə görə dünyanın ən qabaqcıl ölkələrindəndir. Bu mənada, Naxçıvanda təhsilin inkişafı istiqamətində görülən işlər gələcəkdə böyük nailiyyətlərin əldə olunmasına yol aça bilər. Ümid edirəm ki, həm alternativ enerji mənbələrindən istifadəni, həm də təhsil sahəsində ölkənizlə əlaqəli əməkdaşlığımızı daha da inkişaf etdirəcəyik.

*Ceyms Holder – Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin siyasi məsələlər üzrə ikinci katibi:*



– İlk dəfədir, Naxçıvanda oluram. Havası təmiz, yeməkləri dadlı və ləzzətli, insanları qonaqpərvər, küçələri səliqə və sahmanlı olan bu gözəl şəhər məni özünə heyran etdi. Artıq bir neçə ildir, Bakı şəhərində yaşamağıma baxmayaraq, orada yediyim bir çox yeməyin, meyvələrin, içdiyim “Sirab”, “Badamlı” kimi təmiz suların vətəni olan Naxçıvana gəlməkdən, bu gözəl şəhərlə tanışlıqdan məmnunluq hissi keçirirəm. Buradakı tarixi abidələr, yeni inşa olunmuş binalar Avropa standartları səviyyəsində qurulub. Tam əminliklə deyə bilərəm ki, bu, Şərq və Qərb üslubunu özündə birləşdirən Naxçıvana gələn digər xarici qonaqların da diqqətini cəlb edir. “Avropa günləri” çərçivəsində keçirilən möhtəşəm tədbir isə Naxçıvan və naxçıvanlıları daha yaxından tanımaq, gələcəkdə muxtar respublika ilə əlaqələrimizi genişləndirmək, ikitərəfli münasibətləri daha da gücləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Belə beynəlxalq əhəmiyyətli tədbirin şəhərinizdə keçirilməsi bir də onu göstərir ki, Naxçıvanda, həqiqətən də, tolerant mühit formalaşıb və qədim diyarımızda multikultural dəyərlər yaşadılır və inkişaf etdirilir.

*Umberto Boeri – İtaliya səfirliyinin missiya rəhbərinin müavini:* – Naxçıvana ilk dəfədir, gəlirəm. Təəssüratlarıma əsasən deyə bilərəm ki, Azərbaycanın bu bölgəsinə ilk dəfə üz tutan insanlar üçün qədim diyarın təsiri inanılmazdır. Təmiz hava, səliqə-sahman, qonaqpərvərlik, əmin-amanlıq Naxçıvanın cazibəsini daha da artırır. Burada olduğumuz günlərdə daim insanların bizə istiqanlılığı, səmimi münasibəti, mehribançılığı ilə əhatə olunduq. Göstərilən qonaqpərvərlik məni çox məmnun etdi. Xüsusilə yerli restoranların birində yemək yeyərkən italyan musiqisinin səsləndirilməsi ilə sanki özümü ölkəmdə hiss etdim. Bir sözlə, Naxçıvan mədəni zənginliyinə görə çox unikal bir məkandır. Səmimi etiraf edim ki, gələcəkdə vaxtım olarsa, buraya tez-tez gəlməyi düşünürəm.



**Xəbərlər şöbəsi**

# “Dədə Qorqud” kamera orkestrinin konserti keçirilib





*Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018” tədbirləri çərçivəsində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun himayəsində yaradılmış “Dədə Qorqud” kamera orkestrinin konserti olub.*

Tədbirdə fondun prezidenti Günay Əfəndiyeva çıxış edərək bildirib ki, bu gün qədim Türk dünyasının mədəniyyət mərkəzlərindən və ən gözəl guşələrindən biri, İslam Mədəniyyətinin Paytaxtı, Türk dünyasının böyük oğlu, ulu öndər Heydər Əliyevin Vətəni olan Naxçıvanda olmaqdan çox şadıq. Bu gün Naxçıvan qədim olduğu qədər də müasirdir. Biz ikiqat sevinc və qürur hissi keçiririk ki, belə gözəl bir tədbir Türk dünyasının inkişafına, onun güclənməsinə dəstək verən ulu öndərimizin adını daşıyan möhtəşəm Heydər Əliyev Sarayında keçirilir.

Diqqətə çatdırılıb ki, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və Qazaxıstan, Qırğızıstan, Türkiyə dövlət başçılarının dəstəyi ilə yaradılıb. Bizim məqsədimiz, ilk növbədə, türkdilli xalqları yaxınlaşdırmaq, qardaş xalqları daha da doğmalaşdırmaq və eyni zamanda o xalqların sahib olduqları zəngin mədəni irsi dünyaya tanıtmaqdır. Bu istiqamətdə fond müxtəlif layihələr həyata keçirir. Belə layihələrdən biri də “Dədə Qorqud” kamera orkestrinin yaradılmasıdır. Bu il sentyabr ayının əvvəlində Qırğızıstanda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Sammitində orkestrin yaradılması dövlət başçıları tərəfindən imzalanan Bəyannamədə öz əksini tapıb. Türk dünyasının ortaq yazılı abidəsi olan “Kitabi-Dədə Qorqud”un baş qəhrəmanının adını daşıyan kamera orkestri özündə Türk dünyası dövlətlərinin musiqiçilərini birləşdirir. Orkestrin bədii rəhbəri və dirijoru Azərbaycan Respublikasının Xalq artisti Yalçın Adıgözəlovdur.

Günay Əfəndiyeva bu tədbirin reallaşmasında əməyi olan hər kəsə minnətdarlığını bildirib.

Tədbirdə tərkibində Azərbaycan, türk, qazax, qırğız, özbək kimi türkdilli xalqların musiqiçilərini birləşdirən 20 nəfərdən ibarət orkestr geniş konsert proqramı ilə çıxış edib. Orkestrin ifasında xalq və bəstəkar mahnıları türk, Azərbaycan, qırğız dillərində təqdim olunub. “Nizami” simfoniyasının I hissəsi, 3 türk miniatürü: “Üsküdara gedərkən”, “Yeni bir gülnihal”, “Nihavət lonqa”, “Aytın salem kalamkas”, “Dudaray”, “Yeddi gözəl” və “İldırımlı yollarla” baletindən 2 rəqs dinlənilib, ifaçılardan Aydan Həsənovanın “Ölkəm”, “Arzu”, Orxan Zeynalovun “Qərənfil”, “Çahargah”, Almaz İstambayevin “Caylodo”, “Selkiqe”, Orxan Cəlilovun “Dəli ceyran”, “Alagöz”, Sibel Kızılataşin “Mazi kalbində bir yaradır”, “Axşam mahnısı”, Ceyla Seyidovanın “Muğamsayağı” vokal və instrumental ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Orkestrin bədii rəhbəri və dirijoru, Azərbaycan Respublikasının Xalq artisti Yalçın Adıgözəlov bizimlə söhbətində bildirdi ki, Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı olması bizi yenidən bu gözəl diyarda birləşdirdi: – Naxçıvan Azərbaycanın ən çox sevdiyim yerlərindən biridir. Naxçıvan öz qədimliyini qoruyaraq yalnız Azərbaycan Respublikasının yox, bütün Türk dünyasının müasir şəhərlərindən birinə çevrilib. Biz Heydər Əliyev Muzeyində, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksində və Naxçıvan Dövlət Xalça Muzeyində olduq. Burada gördüyümüz təşkilatçılıq yüksək səviyyədədir. Digər tərəfdən, Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı olması hamımızı qürurlandırır, sevindirir. Bu qədim diyarda ulu öndərin təməlini qoyan dövlətçilik ənənələri yaşadılır, mədəniyyətə böyük töhfələr verilir. Bursa Dövlət Simfonik Orkestrinin bu il may ayının 3-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş konsert proqramı da çox maraqla qarşılanmışdı. Türk dünyasının zəngin mədəniyyət və incəsənətini, xalq yaradıcılığını, dahi bəstəkarlarının əsərlərini dünyada tanıtmaq və türkdilli xalqların musiqisini beynəlxalq platformaya yaymaq məqsədilə yaradılan “Dədə Qorqud” kamera orkestri isə ilk dəfədir ki, Naxçıvanda çıxış edir və mən əminəm ki, biz yaxın zamanda bu gözəl diyara yenidən qayıdacağıq.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Naxçıvanda *“İslam filmləri həftəsi”*nin açılışı olub





*Sentyabrın 24-də “Gənclik” Mərkəzində “İslam filmləri həftəsi”nə start verilib.*

Tədbirin açılış mərasimində Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək deyib ki, iyun ayından açılışına start verilən “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018” çərçivəsində qədim diyarımızda bir sıra tədbirlər keçirilib. Bu həftə ərzində keçiriləcək “İslam filmləri həftəsi” də “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018” Tədbirlər Planında əksini tapıb.

Vurğulanıb ki, Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olub və İslam dininin yayılmasında, eyni zamanda müsəlman intibahının bərqərar olmasında mühüm rol oynayıb. Bütün bunlar Azərbaycan ərazisində, o cümlədən Naxçıvan torpağında ilk vaxtlardan İslam dininin maddi və qeyri-maddi irsinin formalaşmasına zəmin yaradıb.

Qeyd olunub ki, bu gün İslam ölkələrinin mədəniyyətinə, incəsənətinə töhfə verən sahələrdən biri də kino sənətidir. Kino sənəti xalqların maariflənməsində, milli və vətənpərvərlik duyğularının aşılanmasında, milli dəyərlərin yaşadılmasında mühüm rol oynamaqla, həm də mərhəmət, şəfqət, insanlığa sevgi, ictimai məsələlərin ön plana çəkilməsində xüsusi əhəmiyyətə malikdir.

Diqqətə çatdırılıb ki, bu gün Naxçıvanda ilk dəfə keçirilən “İslam filmləri həftəsi”ndə ölkəmizlə yanaşı, İran İslam Respublikasının, Türkiyənin, Özbəkistanın, Tacikistanın filmləri nümayiş etdiriləcək. Həmin filmlərdə insanı düşündürən məsələlər, onun mənəvi dünyası və həyata baxışı əsas mövzulardır. “İslam filmləri həftəsi”ndə “Bakı İslam Mədəniyyətinin Paytaxtı – 2009” mədəniyyət ilinin bağlanış mərasimi çərçivəsində nümayiş etdirilmiş “Niyyət”, “Oskar” mükafatına təqdim olunmuş ekran əsəri kimi kino tariximizə düşmüş “Nabat”, müxtəlif beynəlxalq festivallarda 10-dək mükafat almış iranlı məşhur rejissor və ssenarist Məcid Məcidinin “Yağış”, məşhur alim və filosof Əbu Əli ibn Sinanın uşaqlıq və gənclik illərindən bəhs edən Özbəkistan və Tacikistan istehsalı olan “Dahinin gəncliyi”, Türkiyə istehsalı olan, Cəlaləddin Ruminin həyatı və fəlsəfəsini özündə əks etdirən “Eşqin rəqsi” və “Ulak” filmləri nümayiş olunacaqdır.

Sonra 2014-cü ildə Azərbaycanda istehsal olunmuş “Nabat” filmi nümayiş etdirilib. Qarabağ müharibəsindən bəhs edən filmin quruluşçu rejissoru Elçin Musaoğlu, ssenari müəllifləri Elxan Nəbiyev və Elçin Musaoğlu, quruluşçu operatoru Əbdürrəhim Bəşəratdır.

Ekran əsərində Nabat xala rolunda iranlı aktrisa Fatimə Motamed Ariya çəkilib. Qeyd edək ki, film Azərbaycanın səfalı rayonlarından olan İsmayıllıda lentə alınıb. Çəkilişdə hərbi hissələrin şəxsi heyəti də iştirak edib.

**Əli RZAYEV**

# *“Mənim ikinci peşəm”* layihəsinə start verilib



Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev bildirib ki, fond gənclərin hərtərəfli inkişafı, dünyagörüşünün formalaşdırılması, ölkəsinin tarixinə, mədəniyyətinə bağlı layiqli vətəndaş kimi yetişməsi üçün bir sıra layihə və tədbirlər həyata keçirir. Növbəti belə layihələrdən biri də “Mənim ikinci peşəm” adlanır.

Vurğulanıb ki, layihənin əsas məqsədi gənclər arasında sənətə və müxtəlif peşə sahələrinə maraq oyatmaq, onların mədəni dəyərlərimiz, ənənəvi sənət növlərimiz haqqında dolğun məlumata sahib ola bilməsi, Azərbaycan xalqının sevə-sevə yaşatdığı, əsrlərboyu qoruduğu dulusçuluq, misgərlik, xalçaçılıq, papaqçılıq və digər bu kimi sənət növlərinin tarixinin öyrədilməsindən ibarətdir. Bu məqsədlə hər ay 25 nəfərdən təşkil olunmuş qruplarla 5 gün müddətində kurslar keçiriləcəkdir.

Sonra layihə çərçivəsində seçilmiş 25 gənc “Dulusçuluq” kurslarında iştirak edib.

Qeyd edək ki, “Mənim ikinci peşəm” layihəsi çərçivəsində keçiriləcək kurslar 24-28 sentyabr tarixlərini əhatə edəcək və iştirakçılara sertifikatlar veriləcəkdir.

**Xəbərlər şöbəsi**

# *“Evim AVM”* ticarət mərkəzi fəaliyyətə başlayıb



Son illər muxtar respublikamızda sahibkarlığın inkişafı sahəsində ardıcıl tədbirlər görülür, onların normal fəaliyyətinə hərtərəfli şərait yaradılır. Bunun nəticəsidir ki, artıq diyarımızda güclü sahibkarlar dəstəsi formalaşıb. Onlar yaradılan şəraitdən səmərəli istifadə edir, müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət sahələri yaradılır.

Sentyabrın 22-də Naxçıvan şəhərində “Evim AVM” ticarət mərkəzinin açılışı olub. Bu, Naxçıvan Muxtar Respublikasında sahibkarlığın və xidmət sektorlarının inkişafına göstərilən dövlət qayğısının daha bir nümunəsidir. “Evim AVM”də müştərilərə yüksəkkeyfiyyətli mebel dəstləri, elektronika məhsulları, xalça məmulatları, yataq dəstləri və başqa məişət əşyaları təklif olunur. Məhsullar yüksək standartlara uyğun olaraq Türkiyə Respublikasının 50-dən çox firması tərəfindən istehsal edilib.

Onu da bildirək ki, 3 mərtəbəli ticarət mərkəzi Naxçıvan şəhərinin “Təbriz” küçəsində yerləşir.

✍ **Ramiyyə ƏKBƏROVA**



***İtmişdir***

Naxçıvan şəhəri, Sabir küçəsi 56-da yaşamış Allahverdiyev Həsən Tağı oğlunun adına olan 3398 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 700